**Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti**

**"Azərbaycan Akkreditasiya Mərkəzi"publik hüquqi şəxs**

---

# Ə M R

**№** F-28

**Bakı şəhəri** "20" sentyabr **2022-ci il**

**Apellyasiya Şurasının yaradılması barədə**

Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya qaydalarının pozulmasından, o cümlədən akkreditasiyadan imtina barədə qərardan və ya uyğunluğu qiymətləndirən qurumun uyğunluğun qiymətləndirilməsi sahəsində faktiki xarakterli hərəkətindən (hərəkətsizliyindən) edilən şikayətlərə baxılması işinin təşkili məqsədilə "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci maddəsini və "Azərbaycan Akkreditasiya Mərkəzi" publik hüquqi şəxsin nizamnaməsinin 4.2.2.9 bəndini rəhbər tutaraq,

əmr edirəm:

1. Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya qaydalarının pozulmasından, o cümlədən akkreditasiyadan imtina barədə qərardan və ya uyğunluğu qiymətləndirən qurumun uyğunluğun qiymətləndirilməsi sahəsində faktiki xarakterli hərəkətindən (hərəkətsizliyindən) edilən şikayətlərə baxılması üçün "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci maddəsinə uyğun olaraq, eləcə də Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 2 iyul tarixli 252 nömrəli qərarı ilə təsdiq edilmiş Akkreditasiya orqanının Apellyasiya Şurasının Əsasnaməsinin (Əsasnamə) 1.2-ci bəndini nəzərə alaraq "Azərbaycan Akkreditasiya Mərkəzi" publik hüquqi şəxsin Apellyasiya Şurası (Şura) yaradılsın;
2. Şuranın strukturu Əsasnaməyə uyğun təşkil edilsin;
3. Əsasnamənin 3.1 bəndinə əsasən Şuranın tərkibinin Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti (Dövlət

Xidməti) rəisinin əmri ilə təsdiq edilməsi nəzərə alınsın və bu barədə Dövlət Xidmətinə müraciət ünvanlansın.

Əsas:

1. "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikası Qanunu.
2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 2 iyul tarixli 252 nömrəli qərarı ilə təsdiq edilmiş Əsasnamə.

**Direktorun müavini - direktor vəzifəsini müvəqqəti icra edən** **Emin Zeynalov**